# Fransanın iqtisadi və siyasi problemləri pik həddə çatıb

**"Fransa Azərbaycana qarşı qərəzli mövqeyindən əl çəkmir. Bunun əsas səbəblərindən biri də Ermənistandan istifadə etmək niyyətidir. Ermənilərə havadarlıq etmək həm də Parisin müstəmləkəçilik siyasətini davam etdirməsi üçün vacib amildir. Fransanın digər məqsədi isə Rusiyanı Cənubi Qafqazdan uzaqlaşdırmaqdır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, Fransanın Azərbaycana münasibəti qərəzli və məkrlidir: "Vaxtilə işğalda olan ərazilərimizdə iqtisadi, siyasi, hətta hərbi gəlirlər əldə edən Paris indi çarəsiz qalıb. Azərbaycanın öz əzəli torpaqlarını geri qaytarması ilə Fransa, əslində, çox şey itirib. Ona görə də yenidən regiona qayıtmaq üçün ermənilərə dəstək verir, onları silahlandırır, vizual kəşfiyyatçılarla təmin edir. Qısası, Fransa Cənubi Qafqaza qayıtmaq və öz siyasətini reallaşdırmaq üçün cidd-cəhdlə çalışır".

Deputat qeyd edib ki, Fransa prezidenti Makronun burada öz marağı var: "O düşünür ki, növbəti seçkilərdə qalib gəlmək üçün erməni lobbisindən istifadə faydalı ola bilər. Lakin bu səbəbin nə qədər önəmli olduğu qeyri-müəyyəndir. Sözsüz ki, əsas məqsədləri itirdiklərini yenidən bərpa etmək istəkləridir. Bundan başqa, Makron hakimiyyətinin Azərbaycanın apardığı müstəqil xarici siyasəti gözə ala bilməməsi də məlum məsələdir. Fransa elə başa düşür ki, guya Azərbaycan nə qərar verirsə-versin, mütləq bunlarla razılaşdırmalıdır. Bu isə tamamilə absurddur".

Arzu Nağıyevin sözlərinə görə, Fransanın Qarabağla bağlı yalan məlumatlar yayması, Azərbaycana təhdidlər yağdırması qəbuledilməzdir. "Dünyaya bəllidir ki, Azərbaycan Qarabağda yaşayan erməniləri "etnik təmizləmə"yə məruz qoymayıb. Bunu bir sıra xarici dövlətlər və beynəlxalq təşkilatlar da etiraf ediblər. Lakin bütün bunlara baxmayaraq, Fransa hər dəfə bu məsələni gündəmə gətirməyə çalışır və ölkəmizə qara yaxır. Ermənistan və onun Paris kimi saxta havadarları başa düşməlidirlər ki, onların belə cəhdləri heç bir nəticə verməyəcək.

"Heç bir hüquqi əsası olmayan məsələləri aktuallaşdırmaq kimə və nəyə lazımdır?! Görünür, Fransanın regionda möhkəmlənmək üçün başqa fürsəti qalmayıb. Ona görə də belə ucuz bəhanələr uydurmaqla guya Azərbaycanın beynəlxalq imicini zədələmək istəyir. Parisin Cənubi Qafqaz və Azərbaycanla bağlı siyasəti tamamilə fiaskoya uğrayıb", - deyən Arzu Nağıyev vurğulayıb ki, bu gün Fransanın iqtisadi və siyasi problemləri pik həddə çatıb: "Yaxşı olardı ki, onlar öz problemlərini həll etməyə çalışsınlar. Fransa birmənalı olaraq nə istədiyini bilmir. Lakin bir həqiqət var ki, ölkəmizə qarşı riyakar mövqe ortaya qoyur. İstənilən halda fiaskoya uğrayan və ifşa olunan Fransa bundan sonra da eyni taleyi yaşayacaq. Fevralın 7-də prezident seçkiləri zamanı dövlət başçısı İlham Əliyevin öz ailəsi ilə birgə məhz Xankəndidə səsverməsi də dosta və düşmənə verilən mesajdır. Ermənistanın "böyük bacısı" da bundan nəticə çıxarmalıdır".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 11 fevral, № 30.- S.8.